Bülleten № 03 / mart 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

MART 2013

# Elektron Hökumət Bülleteni



azercosmos

## AZƏRBAYCANIN İLK TELEKOMMUNİKASİYA PEYKİ ORBİTƏ ÇIXARILDI

Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



SYSTEM CERTIFICATION ISO 14001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005



# "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili üçün "elektron hökumət" portalının təkmilləşdirilməsi, elektron xidmətlərin təşkili sahəsində görülən işlərin səmərəliliyinin artırılması, dövlət orqanlarının elektron xidmətlərindən geniş istifadə edilməsi məqsədi ilə, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

1. "Elektron hökumət" portalı haqqında Əsasnamə" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq "2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. iki ay müddətində dövlət informasiya sistemlərinin və ehtiyatlarının yaradılmasının və idarə edilməsinin tənzimlənməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. iki ay müddətində "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısını və nformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin portala qoşulması üçün texniki tələbləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

2.4. iki ay müddətində Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.5. iki ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.6. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi:

4.1. "Elektron hökumət" portalının fəaliyyətinin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

4.2. dövlət orqanlarının elektron xidmətlərinin "Elektron hökumət" portalına qoşulmasını təmin etsin.

5. Mərkəzi icra hakimiyyəti orqanları:

5.1. elektron xidmətlərin təşkilini sürətləndirsinlər və onların "Elektron hökumət" portalına qoşulması üçün zəruri tədbirlər görsünlər;

5.2. informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsinin səmərəli təşkili məqsədi ilə sərəncamlarında olan informasiya sistemlərində və ehtiyatlarında fərdi identifikasiya nömrəsinin tətbiqini təmin etsinlər.

6. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi:

6.1. dövlət orqanlarının "Elektron hökumət" portalına qoşulması üçün onları zəruri telekommunikasiya kanalları ilə təmin etsin;

6.2. "Elektron hökumət" portalının təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 5 fevral 2013-cü il

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

Azərbaycan Respublikası Prezidentinin
2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

# "Elektron hökumət" portalı haqqında Əsasnamə

**1. Ümumi müddəalar**

1.1 Bu Əsasnamə "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 3.3-cü bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 11 avqust tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 7.2.1-ci yarımbəndindən irəli gələn vəzifələrin həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır və dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən "Elektron hökumət" portalının (bundan sonra – portal) fəaliyyətinin təşkilinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Portal dövlət orqanlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim olunmasına, istifadəçilərin onlardan istifadəsinə, dövlət orqanlarının portala qoşulmuş informasiya sistemlər və ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) müvafiq sənədlər barədə qanunla müəyyən edilmiş qaydada informasiya əldə edilməsinə xidmət edir.

1.3. Portalın yaradılması, idarə olunması, fəaliyyətinin təşkili və inkişafı portalın operatoru (bundan sonra – operator) - Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən təmin edilir.

1.4. Portalın iştirakçıları – informasiya sistemləri, ehtiyatları portala qoşulmuş, onlar vasitəsilə elektron xidmətlər göstərən və portala qoşulmuş digər informasiya sistemləri, ehtiyatları ilə informasiya mübadiləsində iştirak edən səlahiyyətli dövlət və qeyri-dövlət qurumlarıdır.

1.5. Portalın istifadəçiləri – fiziki və hüquqi şəxslər, dövlət qurumlarıdır.

1.6. İştirakçılar aidiyyəti informasiya ehtiyatlarını portala qoşmalı, göstərdikləri elektron xidmətlərin portala inteqrasiya olunmasını təmin etməli, həmçinin öz informasiya ehtiyatlarındakı  məlumatlardan elektron xidmətlərin göstərilməsi zamanı qanunla müəyyən edilmiş qaydada istifadəni təmin etməlidirlər.

1.7. Portal vasitəsilə həyata keçirilən fəaliyyət Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə" ilə müəyyən olunmuş informasiya proseslərini əhatə etmir.

1.8. Portalın saxlanılma, fəaliyyət və inkişaf xərcləri dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**2. Portalın fəaliyyət prinsipləri**

2.1. Portalın fəaliyyəti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

2.1.1. modulluq və miqyaslılıq - ciddi dəyişikliklər edilmədən portalın proqram-texniki komponentlərinin inkişaf etdirilməsi imkanının olması;

2.1.2. sərbəstlik - portalın tərkibinin və fəaliyyətinin ona qoşulmuş informasiya sistemlərində və ehtiyatlarında aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmaması;

2.1.3. sistemlilik - dövlət orqanları tərəfindən elektron xidmətlərin göstərilməsi məqsədi ilə mövcud olan və ya yeni yaradılan informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı əlaqələrinin və uzlaşmasının təmin edilməsi;

2.1.4. təhlükəsizlik - sertifikatlaşdırılmış proqram təminatından və proqram-texniki vasitələrdən istifadə edilməsi, məlumatlarla, o cümlədən fərdi məlumatlarla bağlı informasiya mübadiləsi zamanı qanunun tələblərinə riayət edilməsi, təşkilati, texniki, texnoloji tədbirlər həyata keçirməklə informasiyanın mühafizəsinin təmin edilməsi;

2.1.5. istifadə asanlığı - informasiya ehtiyatlarına bir dəfə daxil edilmiş məlumatlardan "bir pəncərə" prinsipi əsasında çoxsaylı istifadənin təmin edilməsi;

2.1.6.  səmərəlilik - informasiya mübadiləsinin real vaxt rejimində həyata keçirilməsi, qarşılıqlı əlaqələrin optimallaşdırılması və bununla bağlı vaxt itkisinin və maliyyə məsrəfinin azaldılması;

2.1.6. şəffaflıq – sistem daxilindəki fəaliyyətin şəffaflığının və hesabatlılığının təmin edilməsi, həyata keçirilən prosedurların və onların nəticələrinin izlənilməsi üçün şəraitin yaradılması.

**3. Portalın texniki-texnoloji infrastrukturu**

3.1. Portalın texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

3.1.1. portalın proqram-texniki vasitələri;

3.1.2. "Elektron hökumət" şlüzü;

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

3.1.3. dövlət informasiya ehtiyatlarının reyestri;
3.1.4. telekommunikasiya kanalları;
3.1.5. portalın ehtiyat mərkəzi.

3.2. Portalın proqram-texniki vasitələri elektron xidmətlərin göstərilməsini, istifadəçilərin onlardan istifadəsini, informasiya mübadiləsinin həyata keçirilməsini, portalın fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini təmin edir.

3.3. "Elektron hökumət" şlüzü iştirakçıların informasiya sistemlərinin inteqrasiyasını, qarşılıqlı əlaqəsini, onlar arasında informasiya mübadiləsinin aparılmasını və müvafiq məlumatlar əldə edilməsini təmin edir.

3.4. Dövlət informasiya ehtiyatlarının reyestri elektron hökumətin informasiya təminatının əsasını təşkil edən bu vasitələrin sistemli qaydada qeydiyyatının aparılmasına, onların mövcudluğu barədə məlumatlandırılmasına və təkrarlanmasının qarşısının alınmasına, həmçinin varisliyinin (dövlət əhəmiyyətli resurs və sistemlərin qorunub saxlanılmasına) təmin edilməsinə imkan verir. Bu reyestr portalın tərkib hissəsi kimi istifadə olunmaqla, qarşılıqlı sorğular göndəriləcək informasiya ehtiyatlarının müəyyənləşdirilməsinə və bu əlaqələrin həyata keçirilməsinə köməklik göstərir.

3.5. Portalın fəaliyyətinin dayanıqlılığını, təhlükəsizliyini təmin etmək məqsədilə portalın alternativ ehtiyat mərkəzi yaradılır və portalın proqram-texniki vasitələrinin nüsxəsi bu mərkəzdə saxlanılır.

3.6. Portal oxşar interfeysə malik olan informativ və interaktiv hissələrdən ibarətdir. İnformativ hissə istifadə üçün daim açıqdır və dövlət orqanları tərəfindən göstərilən informativ xidmətlərdən və interaktiv xidmətlər barədə məlumatlardan ibarətdir. İnteraktiv hissə isə interaktiv xidmətlərdən ibarətdir və onlardan istifadəyə şərait yaradır. Fərdi məlumatların mühafizəsi, portal vasitəsilə həyata keçirilən əməliyyatların və istifadə olunan elektron xidmətlərin dəqiq və ünvanlı həyata keçirilməsi üçün interaktiv portal elektron imza sertifikatı və operator tərəfindən verilən kod-parolla daxil olmağa imkan verən müxtəlif autentifikasiya mexanizmləri ilə təchiz olunmalıdır.

**4. Portalın operatorunun funksiyaları**

4.1. Operator portalın fəaliyyətini təmin etmək üçün aşağıdakı funksiyaları həyata keçirir :

4.1.1. portalın fəaliyyətini təşkil etmək, onun vasitəsilə iştirakçıların və istifadəçilərin dayanıqlı, fasiləsiz və təhlükəsiz məlumat mübadiləsinin aparılmasını təmin etmək;

4.1.2. portala qoşulan informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasını iştirakçılardan tələb etmək;

4.1.3. portala qoşulacaq informasiya sistemləri və ehtiyatları, elektron xidmətlər müəyyən edilmiş texniki tələblərə cavab vermədiyi hallarda, onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılmasını tələb etmək;

4.1.4. müəyyən edilmiş texniki tələblərə uyğun olmayan informasiya sistemləri və ehtiyatlarının, elektron xidmətlərin portala qoşulmasından imtina etmək;

4.1.5. iştirakçılara portalın iş prinsipi və funksional imkanları haqqında məlumat vermək, metodiki köməklik göstərmək;

4.1.6. portaldan istifadə qaydaları barədə iştirakçıları və istifadəçiləri məlumatlandırmaq;

4.1.7. portalın komponentlərini və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və saxlanılmasını təmin etmək, tərtib olunmuş qrafik üzrə müvafiq profilaktik işlər aparmaq;

4.1.8. portala qoşulan iştirakçıların informasiya sistemlərini və ehtiyatlarını qeydiyyata almaq, onları müvafiq elektron imza sertifikatları ilə təmin etmək;

4.1.9. portala qoşulmuş informasiya sistemləri və ehtiyatları ləğv edildikdə, mülkiyyətçisi dəyişdikdə və ya digər dəyişikliklər olduğu halda müvafiq tədbirlər görmək;

4.1.10. əsas avadanlıqlarda hər-hansı bir qəza (xəta) baş verdiyi halda portalın iştirakçlarını bu barədə məlumatlandırmaq, dərhal onun aradan qaldırılması üçün müvafiq tədbirlər görmək, baş vermiş qəzanın (xətanın) qısa müddət ərzində aradan qaldırılması mümkün olmadıqda, portalın ehtiyat mərkəzinin fəaliyyətə başlamasını təmin etmək;

4.1.11. qanunla müəyyən edilmiş qaydada informasiya təhlükəsizliyini təmin etmək və fərdi məlumatların mühafizəsini təşkil etmək.

**5. Portalın iştirakçılarının funksiyaları**

5.1. Portalın iştirakçıları aşağıdakı funksiyaları həyata keçirir:

5.1.1. portala qoşulan elektron xidmətlərin təsdiq olunmuş inzibati reqlamentlərə uyğun və fasiləsiz işləməsini təmin etmək;

5.1.2. portalın iştirakçılarının və istifadəçilərinin sorğularını sərbəst, dəqiq və tam cavablandırmaq, elektron xidmətlər göstərmək;

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

5.1.3. elektron xidmətlərin göstərilməsində yaranan nasazlıqların aradan qaldırılması üçün operativ tədbirlər həyata keçirmək və avadanlıqların, proqram təminatının dayanıqlı fəaliyyətini təmin etmək;

5.1.4. qanunla müəyyən edilmiş qaydada fəaliyyət istiqamətlərinə uyğun olaraq elektron xidmətlərin göstərilməsi üçün portala qoşulmuş informasiya sistemlərindən və ehtiyatlarından məlumat almaq;

5.1.5. informasiya sistemləri və ehtiyatlarının, elektron xidmətlərinin portala qoşulması üçün müraciət etdikdə onların müəyyən edilmiş texniki tələblərə uyğunluğuna dair zəruri məlumatları operatora təqdim etmək;

5.1.6. operatorun əsaslandırılmış tələbinə uyğun olaraq portala qoşulacaq informasiya sistemlərində, ehtiyatlarında zəruri dəyişiklik və təkmilləşdirmə aparmaq;

5.1.7. portala qoşulmuş informasiya sistemlərində və ehtiyatlarında nəzərdə tutulan profilaktik, təmir, sazlama və digər texniki işlər barədə operatoru həmin işlərin aparılmasından iki gün əvvəl məlumatlandırmaq;

5.1.8. göstərilən elektron xidmətlərlə bağlı portalın fəaliyyətində baş verən nasazlıqların aradan qaldırılmasını operatordan tələb etmək;

5.1.9. portalın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı operatora və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə (bundan sonra Dövlət Agentliyi) təkliflər vermək;

5.1.10. portala qoşulmuş informasiya sistemlərinin və ehtiyatlarının qanunun tələblərinə uyğun olaraq informasiya təhlükəsizliyini, o cümlədən fərdi məlumatların qorunmasını təmin etmək;

5.1.11. portalın fəaliyyətini ləngidəcək, ona zərər gətirəcək və ya onun fəaliyyətinin dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək.

## 6. Portalın fəaliyyətinin təşkili

6.1. İştirakçıların informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərinin portala qoşulması aşağıdakı qaydada həyata keçirilir:

6.1.1. İştirakçı ona məxsus informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin Portala qoşulması üçün operatora müraciət etməlidir;

6.1.2. Operator portala qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin portala qoşulması üçün müəyyən edilmiş texniki tələblərə uyğunluğunu yoxlamalıdır;

6.1.3. Operatorun uyğunluğa dair rəyinə əsasən müəyyən edilmiş texniki tələblərə cavab verən informasiya sistemləri və ehtiyatları, elektron xidmətlər Portala qoşulması təmin edilməlidir.

6.1.4. Həmin tələblərə cavab verməyən informasiya sistemləri və ehtiyatları, elektron xidmətlər operatorun əsaslandırılmış tələbinə uyğun olaraq onların mülkiyyətçiləri və ya Dövlət Agentliyi tərəfindən zəruri texniki tədbirlər və təkmilləşdirmələr aparıldıqdan sonra Portala qoşulur. Portala qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin portala qoşulması üçün müəyyən edilmiş texniki tələblərə uyğun olması barədə rəyin bir nüsxəsi operator tərəfindən Dövlət Agentliyinə göndərilməlidir.

6.2. İştirakçılar öz informasiya sistemlərini və ehtiyatlarını müəyyənləşdirilmiş tələblərə uyğunlaşdırmalıdır.

6.3. İştirakçılar portala qoşulmuş informasiya sistemləri və ehtiyatları vasitəsilə təqdim olunan məlumatların məzmununa, dəqiqliyinə, tamlığına və etibarlığına görə məsuliyyət daşıyırlar.

6.4. Portalla qarşılıqlı fəaliyyət müəyyən edilmiş texniki tələblər əsasında portalın hər bir iştirakçısı ilə operator arasında bağlanılan müqavilələrdə əks olunur.

6.5. İstifadəçilər portala internet şəbəkəsi, operatorun şəbəkəsi və ya müvafiq tələblərə cavab verən digər şəbəkələr vasitəsilə müraciət edə bilərlər və interaktiv xidmətlər əldə etmək üçün müvafiq autentifikasiya keçməlidirlər.

6.6. İstifadəçilər portal vasitəsilə elektron xidmətlərdən istifadə zamanı müvafiq autentifikasiyadan keçərək, qanunun tələblərinə uyğun olaraq yalnız özlərinə aid məlumatları əldə edə və əməliyyatlar həyata keçirə bilərlər.

6.7. Portal vasitəsilə mübadilə olunan məlumatların bütövlüyünə və dəyişdirilməməsinə görə operator məsuliyyət daşıyır.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Dövlət qurumlarının və hüquqi şəxslərin elektron imza alması prosedurları daha da sadələşdirildi

## "E-ərizə" xidməti




Vətəndaşların elektron imza vəsiqələrinin əldə edilməsi prosedurunun daha da sadələşdirilməsi məqsədilə, RİTN MHM 2012 ci ilin oktyabr ayından başlayaraq "e-ərizə xidməti" tətbiq etmişdir. Məqsəd e-imza vəsiqələrinin alınmasında vaxt itkisinin azaldılması, vətəndaşın qeydiyyat məntəqəsinə yalnış bir dəfə gəlməsi və qeydiyyat məntəqəsi əməkdaşları ilə minimum təmasda olmasından ibarətdir.

Tətbiq olunmuş e-ərizə xidmətinin hüquqi şəxslər və dövlət qurumlarının istifadəsinə verilməsi artıq zamanın tələbi olmuşdur.

Hüquqi şəxslərin və dövlət qurumlarının e-imza vəsiqələrinin əldə olunmasına artan tələbatı nəzərə alınaraq, onların e-imza vəsiqələrini daha sadə qaydada əldə edə bilmələri üçün mövcud prosedurlar daha da sadələşdirilmişdir.

Bu məqsədlə hüquqi şəxslər və dövlət qurumları üçün "e- ərizə xidməti" proqram məhsulu hazırlanıb. Bu proqramın köməyi ilə istənilən dövlət qurumu uniport üzərindən, hüquqi şəxslər və yerli özünüidarəetmə orqanları artıq internet üzərindən elektron müraciət formasını doldurmaqla və ödəniş etməklə, elektron imza kartı sifariş edə bilərlər.

Sifariş qəbul olunub e-imza kartı hazırlandıqdan sonra imza sahibi ilə əlaqə saxlanılaraq məlumatlandırılır və məhsul sahibinə təqdim olunur.

Elektron xidmətlərdən istifadənin genişlənməsi, "vətəndaş-hökumət", "sahibkar-hökumət" münasibətlərinin "elektronlaşması" elektron imza xidmətlərinin daha da aktuallaşmasını zəruri edir. "E-ərizə xidməti"nin fəaliyyətə başlaması ilə istifadəçilər daha yüksək keyfiyyətli xidmətlə təmin olunacaqlar.

Proqram tərəfindən hüquqi şəxslər üçün müqavilə, ərizə və səlahiyyətli şəxsin təyin olunması haqda əmr formaları avtomatik olaraq tərtib olunur. Sifarışçi yalnız bu sənədləri imzalayıb möhürləyərək MHM-ə göndərir. Sifarişçi e-imza vəsiqələrinin ödənişini online edə biləcəkdir. Sifariş ödəniş aparıldıqdan dərhal sonra qəbul olunur və imzalanmış sənədlər MHM-ə çatdıqdan sonra sifarişçiyə gğndərilir.

E-imza vəsiqələrinin yerində sifarişçilərə çatdırılması məqsədilə MHM ilə Xüsusi Rabitə İdarəsi arasında müqavilə bağlanmışdır. Hüquqi şəxslər şəhər və rayon mərkəzlərində bu xidmətdən yararlana biləcəklər. Xüsusi Rabitə İdarəsinin feldyegeri fərdi qaydada ünvana çatdıqdan sonra elektron imza sahibinin şəxsiyyətini müəyyənləşdirməli və MHM tərəfindən sənədlərdə müəyyən edilən müvafiq yerlərdə sifarişçinin imzalanmasını təmin etməli və imzalanmış sənədlərin nüsxəsini MHM-ə qaytarmalıdır. Sifarişçi çatdırılmaya görə əlavə ödəniş etməyəcəkdir.

Yenilik istifadəçilərə xidmət keyfiyyətini yüksəltmək, dövlət qurumlarının və sahibkarlıq subyektlərinin rahatlığını, eləcə də operativliyi təmin etməklə yanaşı, elektron imza sertifikatlarının alınmasında yarana biləcək vaxt itkisinin qarşısını alacaq.

Hüquqi şəxslər www.e-imza, www.e-gov.az , dövlət qurumları isə uniport vasitəsilə xidmətdən istifadə edə bilərlər.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Gömrük Komitəsinin növbəti elektron xidməti istifadəyə verildi

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi "Elektron hökumət» (www.e-gov.az) portalında təqdim edilən elektron xidmətlərin inteqrasiyası üzrə işi davam etdirir. Portala daha bir qurumun göstərəcəyi elektron xidmət inteqrasiya edilib.

Belə ki, Dövlət Gömrük Komitəsinin növbəti xidməti istifadəyə verilib. "Mənim idxal/ixrac əməliyyatlarım" adlanan bu xidmət vasitəsilə xarici iqtisadi fəaliyyət iştirakçıları həyata keçirdikləri idxal-ixrac əməliyyatları barədə Dövlət Gömrük Komitəsindən statistik arayış əldə edə bilərlər.

Bu xidmət növündən istifadə etmək üçün vətəndaşın "Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi"nin (VÖEN) olması vacibdir. Xidmətə keçid zamanı vətəndaşın adında olan VÖEN avtomatik olaraq sistem tərəfindən axtarılır. Növbəti addımda Komitə tərəfindən tələb olunan digər məlumatlar daxil edilməlidir.

## Vergi sistemi mobil ödənişlərin qəbuluna başlamağa hazırlaşır

Azərbaycan Vergilər Nazirliyi ən qısa müddətdə mobil rabitə vasitəsilə ödənişlərin və hesabatların qəbuluna başlayacaq. Trend-in məlumatına görə, bu barədə jurnalistlərə Azərbaycanın vergilər naziri Fazil Məmmədov bildirib."Nazirlik hazırda mobil ödənişlərin, hesabatların qəbuluna, vergi ödəyicilərlə mobil yazışmaların aparılmasına hazırlaşır. Bu, "Elektron hökumət"ə keçidin tərkib hissəsidir", - F. Məmmədov deyib.

Onun sözlərinə görə, Vergilər Nazirliyi e-hökumət çərçivəsində təqdim olunan elektron xidmətlərin sayına görə daha çox elektron xidmət göstərən dövlət orqanıdır.

“Hazırda vergi sistemi üzrə bu xidmətlərin sayı 57-yə çatdırılıb ki, onların 46-sı artıq faktiki tətbiq olunur. Qalan 11 xidmətin tətbiqi ilə bağlı işlər isə başa çatmaq üzrədir", - F. Məmmədov qeyd edib.

## Xaricdə təhsil üzrə Dövlət Proqramının Məlumat İdarəetmə Sistemi yaradılıb

www.xaricdetehsil.edu.gov.az

Təhsil Nazirliyində “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”na dair Məlumat İdarəetmə Sisteminin və yeni veb-saytın hazırlanması ilə bağlı təqdimat keçirilib.

Dövlət Proqramının əsas məqsədi ölkədə rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, Azərbaycan gənclərinin ümumbəşəri dəyərlər əsasında layiqli ali təhsil almaları üçün lazımi şəraitin yaradılması, istedadlı gənclərin dünyanın aparıcı ölkələrində təhsil almaq imkanlarının genişləndirilməsi prosesinin mütəşəkkilliyi və səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir.

Xidmətin “E-gov”a inteqrasiya olunması istiqamətində işlər davam etdirilir.

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

# "Sığortaolunanlara məlumatların verilməsi" elektron xidməti

Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən həyata keçirilən digər elektron xidmətlərlə yanaşı "Sığortaolunanlara məlumatların verilməsi" xidməti xüsusi əhəmiyyət daşıyır.

Belə ki, ölkəmizdə sosial müdafiə sisteminin yenidən qurulması məqsədilə islahatların aparılmasında beynəlxalq standartların və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarının əsas götürülməsi nəticəsində 2006-cı ildən müasir tələblərə cavab verən sığorta-pensiya sisteminin fəaliyyəti təmin edilmişdir. Bu gün həmin sistem sosial sığorta, fərdi uçot və pensiya təminatı sahəsindəki funksiyaların bir-birini tamamladığı vahid mexanizm kimi fəaliyyət göstərməkdədir.

Başqa sözlə, hazırda ölkəmizdə qurulmuş sığorta-pensiya sistemi məcburi dövlət sosial sığortası əsasında fəaliyyət göstərir və sistemin əsas məzmununu sığortaolunanlar üçün ödənilən sığorta haqlarının fərdi uçotunun qurularaq vətəndaşların pensiya təminatının onların fərdi hesablarında əks olunmuş pensiya kapitalına əsasən aparılması təşkil edir.

Göründüyü kimi, hər bir işləyən şəxsin gələcək sosial müdafiə hüquqları, yəni  yaşa, əlilliyə və ya ailə başçısının itirilməsinə görə pensiyanın və ya əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və doğum halında alacağı müavinətin məbləği onun fərdi hesabında əks olunan məlumatlardan asılı olaraq müəyyənləşdiriləcəkdir.

**Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatlar**

Sığortaolunanın SAA: [illegible]

SSN: [illegible]

PİN-i: [illegible]

Sığorta edildiyi il 2006

| | Sığortaedənin adı | Sığortaedənin VÖEN-i | Sığortaedənin DSMF-də uçot nömrəsi | İl ərzində Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər | İl ərzində ödənilmiş məcburi dövlət sosial sığorta haqqı |
|---|---|---|---|---|---|
| Ətraflı | [illegible] | [illegible] | [illegible] | 7246.61 | 1881.15 |
| | Cəmi | | | 7246.61 | 1881.15 |

[illegible] üzrə

| Aylar | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər | Ödənilmiş məcburi dövlət sosial sığorta haqqı |
|---|---|---|
| Yanvar | 471.20 | 117.79 |
| Fevral | 471.20 | 117.80 |
| Mart | 827.20 | 206.80 |
| Aprel | 471.20 | 117.80 |
| May | 827.20 | 206.80 |
| İyun | 471.20 | 142.80 |
| İyul | 1045.02 | 261.26 |
| Avqust | 421.59 | 105.40 |
| Sentyabr | 471.20 | 117.80 |
| Oktyabr | 649.20 | 162.30 |
| Nayabr | 471.20 | 117.80 |
| Dekabr | 649.20 | 206.80 |
| Cəmi | 7246.61 | 1881.15 |

"Sığortaolunanlara məlumatların verilməsi" elektron xidməti vasitəsilə  bütün sığortaolunanlar onlar üçün Dövlət Sosial Müdafiə Fondu tərəfindən  açılmış fərdi şəxsi hesabında illər üzrə əks olunan pensiya kapitalına nəzarət etmək imkanını əldə edirlər. Bu, sistemdə şəffaflığın daha da artmasına gətirib çıxarmaqla yanaşı, həm işəgötürənlər üzərində ictimai nəzarətin təşkilinə, həm də yaxın gələcəkdə avtomatlaşdırılmış pensiya təyinatına imkan verəcəkdir. Başqa sözlə, hər bir işləyən özü üçün sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək və gələcəkdə etibarlı pensiya və məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinət təminatı əldə etmək imkanına malik olacaqdır. Yaxın perspektivdə bu xidmətin daha da inkişaf etdirilməsi, eyni zamanda vətəndaşların 2006-cı ilə qədər mövcud olan pensiya kapitalları barədə məlumatların da elektron qaydada sistemdə yerləşdirilməsi nəzərdə tutulur.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

**Pensiya kapitalı barədə məlumat**

Sığortaolunanın SAA: [illegible]

SSN: [illegible]

PİN-i: [illegible]

| Məlumat ili | İlin əvvəlinə fərdi şəxsi hesabın sığorta hissəsindəki pensiya kapitalı | İl ərzində fərdi şəxsi hesabın sığorta hissəsinə ödənişlər | İlin sonuna fərdi şəxsi hesabın sığorta hissəsindəki pensiya kapitalı | İndeksləşdirmə əmsalı | İndeksləşdirilmə nəzərə alınmaqla məbləğ |
|---|---|---|---|---|---|
| 2006 | 0.00 | 940.58 | 940.58 | 8.30 | 1018.65 |
| 2007 | 1018.65 | 1030.09 | 2048.74 | 16.70 | 2390.88 |
| 2008 | 2390.88 | 1389.81 | 3780.69 | 20.80 | 4567.07 |
| 2009 | 4567.07 | 2183.45 | 6750.52 | 1.50 | 6851.78 |
| 2010 | 6851.78 | 1976.00 | 8827.78 | 5.70 | 9330.96 |
| 2011 | 9330.96 | 1963.36 | 11294.32 | 7.90 | 12186.57 |
| | | Cəmi : 9483.29 | | | Cəmi pensiya kapitalı : 12186.57 |

Xidmət İD-si ca1ff9f1-7bfb-4540-9f12-42641a89479c

2006-cı il 01 yanvar tarixdən ölkə üzrə sığortaolunanların fərdi uçot sistemində uçotu işinə başlanılmış, 2006-2012-ci illər ərzində uçota alınmış sığortaolunanların illər üzrə say bölgüsü aşağıdakı kimi olmuşdur:




2006-cı il üzrə - 1.089.758 nəfər (01.01.2007-ci il)
2007-ci il üzrə - 215.127 nəfər (01.01.2008-ci ilə 1.304.885)
2008-ci il üzrə - 185.445 nəfər (01.01.2009-cu ilə 1.490.330)
2009-cu il üzrə -149.599 nəfər (01.01.2010-cu ilə 1.639.929)
2010-cu il üzrə -160.523 nəfər (01.01.2011-ci ilə 1.800.452)
2011-ci il üzrə - 166.402 nəfər (01.01.2012-ci ilə 1.966.854)
2012-ci il üzrə - 299.220 nəfər (01.01.2013-cü ilə 2.266.074)

Nəticədə, 2013-cü ilin 1 yanvar tarixinə 2 milyon 266 mindən artıq sığortaolunana (bunlardan 13 min 744 nəfəri xarici ölkələrin vətəndaşlarıdır) sosial sığorta nömrəsi verilmiş, onlar üçün fərdi hesab açılmışdır.

Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində uçota alınmış sığortaolunanların 57.1%-ni (1293972) kişilər, 42.9%-ni isə (972102) qadınlar təşkil edir. 2266074 sığortaolunanın 1638653 nəfəri hüquqi şəxslərdə işləyənlər, 355437 nəfəri torpaq sahibləri və onların ailə üzvləri, 271984 nəfəri fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və onların işçiləri kimi uçota alınmışdır.



Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## “Sığortaolunanlara məlumatların verilməsi" elektron xidmətindən istifadə proseduru

***Dövlət Sosial Müdafiə Fondunun rəsmi internet səhifəsində fondun göstərdiyi "Sığortaolunanlara məlumatların verilməsi" elektron xidmətindən istifadəyə dair təlimat yerləşdirilib.***




Təlimatda qeyd olunur ki, xidmətdən istifadə etmək üçün sığortaolunanlar "www.e-gov.az" Elektron Hökumət Portalına daxil olurlar. Dövlət Sosial Müdafiə Fondunun göstərdiyi elektron xidmətlərin siyahısından "Sığortaolunanlara məlumatların verilməsi" xidmətini seçirlər. Sonra "Xidmətə keçid" düyməsinə basmaqla portala daxil olmaq üçün autentifikasiya vasitələrinin təklif olunduğu pəncərə açılır:

"Vətəndaş bölməsini seçərək açılan pəncərədə qeydiyyatdan keçmək üçün "Davam et" düyməsini basır. Bu zaman portala daxil olmaq üçün əlavə pəncərədə qeydiyyat səhifəsi açılır. Səhifədə "Qeydiyyat üçün videotəlimat" və "İstifadəçi üçün təlimat və istifadə qaydaları" adlı köməkçi menyular mövcuddur".

İstifadəçi qaydalarını oxuduqdan və qəbul etməsini işarələdikdən sonra "Davam et" düyməsinə basmaqla müvafiq pəncərə açılır: "İlk növbədə şəxsiyyəti təsbit etmək üçün şəxsiyyət vəsiqəsinin nömrəsini və sağ aşağı küncündəki, axırdan birinci rəqəmi buraxmaqla, sonrakı 7 rəqəm və hərflərdən ibarət PİN kodu, eləcə də sistemin ekrana çıxardığı təhlükəsizlik kodunu daxil etmək tələb olunur.

"Məlumatları yoxla" düyməsinə basdıqdan sonra, sistem Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin "Giriş-çıxış və qeydiyyat" İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemində sorğu edənin məlumatlarını yoxlayır və qeydiyyatı davam etmək üçün növbəti pəncərə açılır".

Burda bir məsələni nəzərə almaq lazımdır ki, sistem istifadəçinin "Dövlət sosial sığorta şəhadətnaməsi"nin, "Sürücülük vəsiqəsi"nin və "Ümumvətəndaşlıq pasportu"nun olduğunu müəyyənləşdirir və müvafiq məlumatların daxil edilməsini tələb edir.

Müvafiq məlumatlar daxil edildikdən sonra sistem tərəfindən yoxlanılır və yoxlama müvəffəqiyyətlə nəticələndiyi təqdirdə İstifadəçinin aktivasiyası mərhələsinə keçid təmin edilir. İstifadəçi istər elektron poçt, istərsə də onun adına olan mobil telefon vasitəsilə aktivasiya kodunu əldə etmək üçün müraciət edə bilər. Hansı vasitəni seçməsindən asılı olmayaraq əldə edilmiş aktivasiya kodu daxil edilərək hesab aktivləşdirilir:

“Hesab aktivləşdirildikdən sonra istifadəçi "Sığortaolunanlara məlumatların verilməsi" xidmətini seçərək

"Xidmətə keçid" düyməsinə basmaqla yenidən portala daxil olur və bölməsini seçərək açılan pəncərədə məlumatlarını yazaraq autentifikasiyadan keçir". İstifadəçi daha öncədən müəyyənləşdirdiyi istifadəçi adı və parolu daxil edərək elektron xidmətə daxil olur. Burda istifadəçiyə iki növ məlumat təqdim olunur: pensiya kapitalı və məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatları əldə edir.

"Pensiya kapitalı barədə məlumat" menyusunu seçməklə sığortaolunanlar illər ərzində toplanmış pensiya kapitalı barədə məlumatları əldə edirlər.

Qeyd olunan məlumatları "PDF" formatda saxlamaq üçün "PDF" düyməsini basmaq kifayətdir. "Məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatların əldə edilməsi" menyusunu seçməklə müvafiq pəncərə açılır:

“Açılan pəncərədə lazım olan ili seçib "Göndərmək" düyməsinə basmaqla həmin il ərzində məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər, ödənilmiş məcburi dövlət sosial sığorta haqqı, sığortaedənin adı, VÖEN-i və DSMF-dəki uçot nömrəsi barədə məlumatların ekrana əks olunması təmin edilir. "Ətraflı" düyməsinə basmaqla məcburi dövlət sosial sığortasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqının həmin ilin ayları üzrə açıqlamasına baxmaq mümkündür".

Xatırladaq ki, qeyd olunan məlumatları lazım olduqda bir neçə sığortaedən üzrə də əldə etmək mümkündür.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Elektron xidmətlərin genişləndirilməsi məsələsi müzakirə olunub

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli Fərmanının icrası ilə bağlı görülən işlərin və qarşıda duran məsələlərin müzakirəsi məqsədilə dövlət qurumlarının səlahiyyətli nümayəndələri və mütəxəssislərinin iştirakı ilə geniş tərkibdə iclas keçirilib.

Tədbiri giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları nazirinin müavini İltimas Məmmədov son illərdə ölkədə informasiya və kommunikasiya texnologiyaları inkişafı istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib, ölkə Prezidentinin 2013-cü ilin Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi barədə sərəncamını xatırladaraq sərəncamın bu sahəyə ölkə rəhbərliyinin xüsusi diqqətinin bariz nümunəsi olduğunu vurğulayıb.

Daha sonra dövlət başçısının 2013-cü il 5 fevral tarixli Fərmanda nəzərdə tutulmuş tədbirlərin əhəmiyyətini qeyd edərək onların vaxtında və keyfiyyətlə həyata keçirilməsinin vacibliyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Fərmanda bir sıra dövlət orqanları qarşısında qoyulmuş vəzifələr açıqlanaraq onların icrası istiqamətində birgə fəaliyyətin həyata keçirilməsinin vacibliyi qeyd edilib.

Artıq bu istiqamətdə hər bir dövlət orqanına tapşırılmış vəzifələrin tez bir zamanda həyata keçirilməsini təmin etmək üçün RİTN tərəfindən dövlət orqanlarına aidiyyəti üzrə müraciətlərin göndərildiyi barədə məlumat verilib.

Tədbirdə Fərmanla Əsasnaməsi təsdiq olunmuş və yaradılması, idarə olunması, fəaliyyətinin təşkili və inkişafı RİTN tərəfindən həyata keçirilən "Elektron hökumət" portalının cari iş vəziyyəti və ondan səmərəli istifadənin təşkili istiqamətində görülən işlər barədə məlumat verilib. Portal vasitəsilə göstərilən elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən layihələr barədə məruzə olunub.

İştirakçılara Fərmanla verilmiş tapşırıqlarla bağlı RİTN tərəfindən aparılan işlər barədə məlumat verilib. Fərmanda nəzərdə tutulmuş tapşırıqlardan biri kimi "2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı"nın layihəsininin hazırlanması ilə bağlı təkliflərin verilməsi üçün iclasda iştirak edən bütün dövlət qurumlarının nümayəndələrinə müraciət edilib. Daha sonra Fərmanda nəzərdə tutulmuş digər tapşırıqların icrası barədə fikir mübadiləsi aparılıb.

İclasda Ədliyyə, Vergilər, Təhsil, Mədəniyyət və Turizm, Maliyyə nazirliklərinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin və bir sıra digər dövlət orqanlarının nümayəndələri çıxış edərək təmsil etdikləri dövlət orqanları tərəfindən Fərmanın icrası istiqamətində görüləcək işlər barədə məlumat veriblər, bu istiqamətdə qarşıda duran çətinliklər və problemlərin aradan qaldırılmasının vacibliyini vurğulayıbar.

İclasda müvafiq olaraq elektron xidmətlərin təşkili ilə bağlı dövlət orqanları tərəfindən həyata keçirilməli olan tədbirlər barədə iştirakçılara geniş məlumat verilib və bu istiqamətdə yaranan suallar cavablandırılıb.

İclasın sonunda Fərmanın müddəalarından irəli gələn məsələlərin nəzərdə tutulmuş müddətlərdə həlli üçün görüləcək işlər barədə ətraflı müzakirələr və fikir mübadiləsi aparılıb, müvafiq qərarlar qəbul olunub.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş e-xidmətlər üzrə hal-hazırda "E-xidmətlər portalı"nda yerləşdirilmiş e-xidmətlərin sayı və portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı barədə

## MƏLUMAT

01.03.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən E-gov.az portalında olan e-xidmətlərin sayı | E-gov.az portalında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olan e-xidmətlərin sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 21 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 3 | 3 | 9 | 10 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 5 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 3 | 8 | 9 | 6 |
| 7 | Vergilər Nazirliyi | 57 | 3 | 9 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 3 | 6 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 11 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 15 | 15 | 9 | 6 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 25 | 3 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 7 | 7 | 13 | 13 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 24 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 4 | 4 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 2 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 2 | 5 | 9 | 5 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 8 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 9 | 4 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 1 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 3 | 3 | 6 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 0 | 0 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 4 | 11 | 10 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 1 | 1 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 2 | 3 | 12 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 5 | 5 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 0 | 0 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **126** | **183** | **347** | **295** |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.02.2013 – 28.02.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı

| № | Xidmətin adı | Təchizatçının adı | Sayı |
|---|---|---|---|
| 1 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1313 |
| 2 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 1217 |
| 3 | Lokal danışıqların açıqlaması | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 856 |
| 4 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 613 |
| 5 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 608 |
| 6 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 554 |
| 7 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 493 |
| 8 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 487 |
| 9 | Cari danışıqlar üzrə məlumat | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 403 |
| 10 | Telefon üzrə ətraflı məlumat | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 311 |

## 01.03.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxlərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 5309 | 220 | 3665 | 8194 |

## "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

Dövlət qurumları üzrə

| № | Qurumun adı | Dövlət İnformasiya Ehtiyatları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|---|---|
| 1 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 4 | 3 | 7 |
| 2 | Dövlət Gömrük Komitəsi | 1 | | 1 |
| 3 | Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 | | 1 |
| 4 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 | | 6 |
| 5 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | | 1 |
| 6 | Dövlət Dəniz Administrasiyası | 1 | 1 | 2 |
| 7 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 2 | | 2 |
| 8 | İqtisadi İnkişaf Nazirliyi | 1 | | 1 |
| 9 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 1 | 1 | 2 |
| 10 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | | 2 | 2 |
| 11 | "Bakıelektrikşəbəkə" ASC | | 2 | 2 |
| 12 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | | 1 | 1 |
| 13 | Dövlət Miqrasiya Xidməti | | 1 | 2 |
| 14 | Azərbaycan Respublikasının Mərkəzi Bankı | | 2 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | | 4 | 4 |
| 16 | Dövlət Sosial Müdafiə Fondu | 1 | 1 | 2 |
| 17 | Vergilər Nazirliyi | 1 | | 1 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 6 | | 2 |
| | CƏMİ | 26 | 18 | 44 |

www.e-gov.az

## Nəqliyyat nazirliyinin 4 elektron xidməti elektron hökumət portalına inteqrasiya olundu




Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsinə xüsusi icazənin verilməsi. Bu xidmət iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yolları, o cümlədən hərəkət marşrutuna daxil edilmiş və Azərbaycan Respublikasının ümumi istifadədə olan avtomobil yollarına müvafiq qaydada aid edilmiş yaşayış məntəqələrinin yolları, prospektləri və küçələri (bundan sonra - avtomobil yolları) ilə hərəkətini və onların avtomobil yolları ilə hərəkətinə dair xüsusi icazənin verilməsini əhatə edir.

Nəqliyyat Nazirliyinin mülkiyyətində olan ümumi istifadə edilən avtomobil yollarında müvafiq işlərin görülməsi üçün texniki şərtin verilməsi. Bu xidmət ümumi istifadədə olan avtomobil yollarında və onların təhkim və mühafizə zolaqlarında mühəndis kommunikasiyalarının quraşdırılması və ya yenidən qurulması, avtomobil yollarının mühafizə zolağında və ya kənarda yerləşən obyektlərə giriş-çıxış yolunun tikintisi ilə bağlı müvafiq işlərin görülməsi üçün texniki şərtin və avtomobil yollarının mühafizə zolağında və ya ona bitişik ərazilərdə yeni obyektin tikintisinə rəyin verilməsini əhatə edir.

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılması. Bu xidmət ölkədə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən fiziki və hüquqi şəxslərin fəaliyyətlərinin hüquqi əsasının yaradılması üzrə nazirlik tərəfindən xüsusi razılığın (lisenziyanın) verilməsini əhatə edir.

Rəqəmsal taxoqraf kartlarının verilməsi. Bu xidmət beynəlxalq avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı nəqliyyat vasitələrinin heyətinə, daşıyıcılara, servis emalatxanalarının heyətinə və nəzarətçilərə rəqəmsal taxoqraf kartlarının verilməsini əhatə edir.

## Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin yeni xidmətləri elektron hökumət portalına inteqrasiya olundu




Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin daha iki xidməti "Elektron Hökumət" Portalı vasitəsilə vətəndaşların istfadəsinə təqdim edildi. Bu xidmətlər "Qiymətli kağızlarla girova xitam verilməsi üçün müraciətin və sənədlərin qəbulu" və "Qiymətli kağızların girovda olub-olmaması barədə arayışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidmətləridir.

Hər iki xidmət növündən istifadə etmək üçün vətəndaşlar Komitə tərəfindən təqdim olunan çox sadə formaları doldurmaqla sorğularını quruma göndərə bilərlər. Onu da qeyd edək ki, formalarda e-imza ilə imzalanmış sənədin əlavə edilməsi də tələb olunur.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.02.2013 – 28.02.2013-cü il dövrü ərzində “Elektron hökumət” portalındakı e-xidmətlərdən istifadə barədə statistik məlumat

| № | Xidmət təchizatcısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə | |
|---|---|---|---|---|
| | | | Yanvar 2013 | Fevral 2013 |
| 1 | Daxili İşlər Nazirliyi | 2 | 866 | 953 |
| 2 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 3 | 5 |
| 3 | Ədliyyə Nazirliyi | 4 | 1494 | 891 |
| 4 | Vergilər Nazirliyi | 10 | 674 | 759 |
| 5 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 15 |
| 6 | Fövqaladə Hallar Nazirliyi | 4 | - | 56 |
| 7 | Sənaye və Energetika Nazirliyi | 2 | 4 | 3 |
| 8 | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi | 6 | 679 | 729 |
| 9 | Kənd Təsərrufatı Nazirliyi | 1 | 42 | 1 |
| 10 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 | 3 | 3 |
| 11 | Təhsil Nazirliyi | 3 | 781 | 731 |
| 12 | Səhiyyə Nazirliyi | 6 | 270 | 185 |
| 13 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 24 | 4756 | 3754 |
| 14 | Gənclər və İdman Nazirliyi | 4 | 4 | 5 |
| 15 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 44 | 27 |
| 16 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 4 | 2 |
| 17 | Qacqınların və Məcburi Kockunlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 28 | 19 |
| 18 | Dövlət Gömrük Komitəsi | 7 | 258 | 202 |
| 19 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 6 | 209 | 237 |
| 20 | Dövlət Statistika Komitəsi | 6 | 24 | 167 |
| 21 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 142 | 128 |
| 22 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 1908 | 3815 |
| 23 | Müəllif Hüquqları Agentliyi | 4 | 4 | 7 |
| 24 | Dövlət Dəniz Administrasiyası | 2 | 50 | 7 |
| 25 | Dövlət Sərhəd Xidməti | 2 | 4 | 14 |
| 26 | Milli Arxiv İdarəsi | 3 | 13 | 17 |
| 27 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 2 | 79 | 163 |
| 28 | "AzərEnerji" ASC | 1 | 1 | 5 |
| 29 | "AzərSu" ASC | 1 | 117 | 117 |
| 30 | "Meliorasiya və su təsərrüfatı” ASC | 2 | 10 | 4 |
| 31 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 | 4 |
| | CƏMİ | 155 | 12438 | 13025 |

* Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

www.e-gov.az

# 1 Portala daxil olan istifadəçilərin sayı

STATİSTİKA

01.02.2013 28.02.2013

www.egov.az http://www.egov.az

Процентная доля показателя (посещения): 100,00 %

Обзор




**Количество человек, посетивших этот сайт: 22 729**

| | |
|---|---|
| Посещения **31 655** | Уникальные посетители **22 729** |
| Просмотры страниц **90 588** | Страниц/посещение **2,86** |
| Ср. продолж .посещ. **00:03:08** | Показатель отказов **47,00 %** |
| Новые посещения, % **62,21 %** | |



**62,37 % New Visitor**
19 744 Посещения

**37,63 % Returning Visitor**
11 911 Посещения

# 2 Portalda qeydiyyatdan keçmiş istifadəçilərin sayı:

Ümumi aktiv qeydiyyat: **4277**

2013-cü ilin fevral ayı üçün aktiv qeydiyyat: **1448**

© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az